MƏDƏNİYYƏT DÜNYASI
Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti XLVII buraxılış, Bakı, 2025
МИР КУЛЬТУРЫ
Азербайджанский государственный университет культуры и искусств, XLVII выпуск, Баку, 2025
THE WORLD OF CULTURE
Azerbaijan State University of Culture and Arts, XLVII edition, Baku, 2025

**UOT 76**
**ORCID: https://orcid.org/0009-0007-6342-8150**
**https://doi.org/10.52094/2221-7584.2025.47.0232**

**Heydərova Esmira Fəxrəddin qızı**
**Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının dissertantı**
**E-mail: heydarova03@gmail.com**

# VƏCİHƏ SƏMƏDOVANIN YARADICILIĞINDA SÜJETLİ KOMPOZİSİYALAR VƏ ONLARIN BƏDİİ XÜSUSİYYƏTİ

**Xülasə:** Məqalədə Vəcihə Səmədovanın yaradıcılığında süjetli kompozisiyaların bədii xüsusiyyətləri tədqiq edilir. XX əsrin ikinci yarısında Azərbaycan təsviri sənətində qadın rəssamların rolu artmış və bu dövrdə Vəcihə Səmədova realist təsvir texnikası ilə yanaşı, qadın dünyasına məxsus poetik duyumu bədii görüntüyə gətirmişdir. Məqalədə onun süjetli kompozisiyaları arasında xüsusilə seçilən "Üzeyir Hacıbəyli Azərbaycan bəstəkarlarının arasında" (1951), "Nişan mərasimi" (1955), "Azərbaycan toyu" (1957), "Bağda" (1957), "Lənkəranlı qızlar" (1961), "Lənkəranda toy təntənəsi" (1964), "Xəbər gözləyərkən" (1964) və "Kəşfiyyatçı qocalar" (1965) kimi kompozisiyaları təhlil olunur.

Bu əsərlərdə qadın obrazları, sosial münasibətlər, xalqın məişəti və mənəvi dəyərləri rəssamın fərdi bədii dili ilə təqdim olunur. Vəcihə Səmədova kompozisiyalarında yalnız bədii harmoniyaya deyil, həm də psixoloji dərinliyə, daxili dinamizmə və koloristik ahəngə nail olmuşdur. Əmək, ailə, gözlənti, mədəniyyət və tarixi yaddaş bu süjetlərin əsas süjet sütunlarını təşkil edir. Rəssamın hər bir əsəri müəyyən mənada poetik mahiyyət daşıyaraq Azərbaycan qadınının həyatda və sənətdəki yerini ifadə edir. Məqalədə bu kompozisiyaların sənətşünaslıq baxımından təhlili aparılaraq, onların həm bədii-estetik əhəmiyyəti üzə çıxarılır.

**Açar sözlər:** Vəcihə Səmədova, süjetli kompozisiya, Azərbaycan rəngkarlığı, rəssam, bədii xüsusiyyət

**Giriş.** Azərbaycan təsviri sənətinin inkişafında qadın rəssamların iştirakı XX əsrin ikinci yarısından etibarən daha da fəallaşmış və bu proses milli

rəssamlıq məktəbinin ideya-estetik sərhədlərinin genişlənməsinə töhfə vermişdir. Bu baxımdan, Əməkdar incəsənət xadimi Vəcihə Səmədova həm ilk peşəkar qadın rəssamlarından, həm də sosialist realizmi üslubunda fərdi dəst-xətti olan görkəmli rəssam kimi XX əsr Azərbaycan təsviri sənətinin inkişafında böyük rol oynamışdır.

**Əsas hissə:** Vəcihə Səmədovanın yaradıcılığında süjetli kompozisiyalar xüsusi yer tutur. Bu əsərlərdə yalnız bir an və ya vəziyyət deyil, məna dərinliyi olan hadisələr, sosial və psixoloji fon rəssamın fərdi baxış bucağından təqdim olunur. Onun süjetli kompozisiyalarında əsas mövzular qadın obrazı, əmək, mədəniyyət, musiqi, vətənə bağlılıq, maarifçilik və insani münasibətlərdir. Bu mənada rəssamın "Üzeyir Hacıbəyli Azərbaycan bəstəkarlarının arasında" (1951), "Nişan mərasimi" (1955), "Azərbaycan toyu" (1957), "Bağda" (1957), "Lənkəranlı qızlar" (1961), "Lənkəranda toy təntənəsi" (1964), "Xəbər gözləyərkən" (1964), "Kəşfiyyatçı qocalar" (1965) və s. əsərlərini vurğulaya bilərik. Alları qeyd olunan bu kompozisiyaların hər biri – istər əmək mövzulu, istər musiqili, istərsə də gündəlik həyat mənzərəsi – təbiiliyin və ideyanın vəhdəti əsasında qurulmuşdur. Əsərlərindəki insan obrazları sadəcə portret xarakteri daşımır, onlar dövrün ruhunu, sosial mövqeləri və milli dəyərləri əks etdirən simvollar kimi də çıxış edir.

Vəcihə Səmədovanın "Üzeyir Hacıbəyli Azərbaycan bəstəkarlarının arasında" (1951) əsəri Azərbaycan rəngkarlığında mühüm yer tutan realist üslubda çəkilmiş əsərlərdəndir. Bu əsər, Azərbaycan musiqisinin görkəmli nümayəndəsi Üzeyir Hacıbəylinin dövrünün bəstəkar və sənətkarları ilə birgə anlarını əks etdirir. Məhz buna görədir ki, bu əsər Vəcihə Səmədovanın yaradıcılığında portret və süjetli kompozisiya sintezinin uğurlu nümunələrindən hesab edilir. Tabloda isti, olduqca səmimi, mehriban və ziyalı mühit hiss olunur. Otaq klassik interyer elementləri ilə bəzədilib: xalçalar, ağır pərdələr, pianino və masa üzərindəki sənədlər, notlar. Bu elementlər Azərbaycan musiqi mədəniyyətinin intellektual və estetik dəyərlərini əks etdirir.

Əsərin mərkəzində Üzeyir Hacıbəyli oturmuş vəziyyətdə təsvir edilib. O, gözlüklü, klassik kostyumda, ciddi və dərin düşüncəli baxışları ilə diqqət çəkir. Üzeyir bəyin arxasında və ətrafında digər gənc bəstəkarlar (onun istedadlı

tələbələri Fikrət Əmirov, Cahangir Cahangirov, Süleyman Ələsgərov və Ədilə Hüseynzadə) toplaşıb. Sağ tərəfdə oturan qadın və ayaq üstə dayanan kişi də əsərə xüsusi dinamika qatır. Sol tərəfdə isə bir qadın pianoda ifa edir, bu da musiqi mühitinin canlılığını əks etdirir.

Vəcihə Səmədova hər bir obrazın fərdi xüsusiyyətlərini önə çəkərək, onları özünəməxsus cizgilərlə təqdim etmişdir. Belə ki, rəssam burada isti, təbii tonlardan istifadə edib. Günəş işığının pəncərədən süzülməsi, interyerə işıq və dərinlik qatır. İşıq Üzeyir Hacıbəylinin və gənc bəstəkarların üz ifadələrini daha real və təsirli göstərməyə imkan yaradır. Bu əsər yalnız Üzeyir Hacıbəylinin şəxsiyyətini deyil, bütövlükdə onun ətrafında formalaşmış musiqi mühitini də təsvir edir. Başqa sözlə desək, burada bəstəkarın tələbələri və Azərbaycan musiqisinin inkişafında mühüm rol oynayan şəxslər bir araya gətirilib. Əsər milli mədəniyyətimizə və musiqi sənətinə olan sevgini ifadə etməklə yanaşı, Üzeyir Hacıbəylinin Azərbaycan musiqi mədəniyyətindəki aparıcı rolunu nümayiş etdirir. Odur ki, bu tablo, həm tarixi sənəd, həm də bədii ifadə vasitəsidir və Azərbaycan incəsənətində realizmin parlaq nümunələrindən biri hesab edilir.

Qeyd edək ki, vaxtilə Vəcihə Səmədovanın müəllimləri bu əsərin mürəkkəb kompozisiya quruluşuna və dərin bədii-fəlsəfi məzmuna malik olduğunu xüsusilə vurğulamışlar. Gənc rəssam burada həm portret janrının mövcud ənənələrindən məharətlə faydalanmış, həm də təhsil illərində qazandığı bilik və bacarıqları uğurla tətbiq etmişdir. Bununla yanaşı, onun doğma istedadı da əsərin formalaşmasında mühüm rol oynamışdır. *“Üzeyir Hacıbəyli Azərbaycan bəstəkarlarının arasında” əsəri rəssamın ilk qrup portret işi kimi diqqəti cəlb edir. “Bu əsər müjdəçi rolunu oynayaraq sənətə istedadlı və ciddi rəssamın gəldiyindən soraq verirdi. Əsərdə gənc rəssamın axtarış həvəsli olduğu görünür, potensialının böyüklüyü özünü göstərirdi. Məhz bu səbəblərdən də ona Moskvada daha üç il qalmaq, təhsilini aspiranturada davam etdirmək təklif olunur. Aspiranturanı bitirəndə isə Vəcihə xanıma başqa bir təklif edirlər. Onun institutda saxlanmasını və burada işləyərək tələbələrə dərs deməsini istəyirlər. Lakin Vəcihənin vətənə bağlılığı, yurd sevgisi böyük idi. O, həmin təklifi qəbul etməyərək Bakıya qayıdır” [İ.Əliyeva, Azərbaycan, 2014, 27 noyabr. Səh.7].*

Vəcihə Səmədovanın süjetli kompozisiyalarında obrazlar heç zaman passiv tamaşa obyektinə çevrilmir. Onlar daxili dinamizmə və fərdi psixoloji dolğunluğa malikdirlər. Kompozisiyalarda məkan, insan və predmet arasında qurulan tarazlıq, rəssamın yüksək kompozisiya duyumunu, koloristik aydınlıq isə onun kolorist rəssam kimi peşəkarlığını nümayiş etdirir.

Vəcihə Səmədovanın "Nişan mərasimi" (1955) əsəri rəssamın emosional yüklü süjetli kompozisiyalar silsiləsinə aiddir. Kompozisiya, adından da bəlli olduğu kimi, Azərbaycan xalqının ənənəvi ailə mərasimlərindən biri olan nişan hadisəsini əks etdirir.



**Vəcihə Səmədova. "Nişan mərasimi". 1955.**

Lakin rəssam burada konkret ayin və mərasimi deyil, onun emosional və sosial kontekstini önə çəkmişdir.

Əsərdə mərkəzi fiqurların dinamikliyi həm süjetin əsas yükünü daşıyır, həm də kompozisiyanın emosional mərkəzini təşkil edir. Ətraf fiqurlar (qara çarşablı qadınlar, ağ köynəkli uşaq və yaşlı kişi) isə səhnəyə şahidlik edən, lakin müdaxilə etməyən elementlər kimi yerləşdirilmişdir. Bu yanaşma kameralı və teatr səhnəsi effekti yaradır. Kompozisiya axıcı diaqonal quruluşa malikdir: fiqurlar soldan sağa, üfüqi və maili şəkildə düzülərək həm məkan, həm də hadisə ardıcıllığını təqdim edir.

Qeyd edək ki, əsərin bədii həlli konkret – realist tərzdə işlənilməyib, ancaq silinmiş sərhədlər, yumşaq keçidlər və qısa, amma kəskin fırça hərəkətləri ilə formalaşdırılmışdır. Bu da onu göstərir ki, rəssam hadisədən çox hissləri ifadə etməyə çalışmışdır. Rəssamın bu əsərində ekspressiv rəng həlli xüsusi yer tutur. Tünd qara və qırmızı rənglər, qadın fiqurlarının geyimində və ümumi tonallıqda dramatik və ağır emosional fon yaradır. Bu rənglərə qarşılıq olaraq, ağ rəngli uşaq fiquru, həm rəng, həm də məna baxımından kontrast mərkəz kimi seçilir – gələcək nəsil, ümid, yeni başlanğıc.

Qəhvəyi, yaşıl və qızılı çalarlar isə kompozisiyaya təbiilik və daxili istilik qatır. Bu rəng münasibətləri əsəri yalnız bədii deyil, həm də emosional tarazlıqla zənginləşdirir. Fırça yaxmalarının sərbəst və rənglərin kütləvi işlənməsi ilə tamamlanır ki, bu da Vəcihə Səmədovanın rəngkarlıq texnikasında psixoloji təsvir dərinliyi yaratmaq istəyindən xəbər verir.

"Nişan mərasimi" (1955) bir ailə mərasimi olmaqla yanaşı, keçmiş və gələcəyin qovuşması, ayrılıq və ümidin, qadın hissiyyatının bədii görüntüyə çevrilməsi baxımından da simvolik məna daşıyır. Buradakı sarılan qadınlar bir tərəfdən qəbul etmə və vidalaşma, digər tərəfdən isə ənənə və davamlılıq anlamını təmsil edir. Əsər həm də cəmiyyətin qadın mövqeyinə dair susqun, lakin dərin bir ifadə daşıyır. Qadınlar ön plandadır, lakin üzlər təfərrüatsızdır – bu, onların hisslərinin ümumiləşdirilməsinə, tamaşaçının onları fərqli təfsir etməsinə imkan verir.

"Nişan mərasimi" (1955) tablosu Vəcihə Səmədovanın yaradıcılığında sosial məna ilə bədii ifadənin vəhdətini yüksək səviyyədə nümayiş etdirir. "Nişan mərasimi" yalnız bir hadisənin təsviri deyil, həm də Azərbaycan qadınının həyatındakı emosional keçid anlarının bədii poetikasıdır. Qeyd edək

ki, Vəcihə Səmədovanın bütün əsərlərində qadın obrazları üstünlük təşkil edir ki, bu da onun yaradıcılığını səciyyələndirən xüsusiyyətlərdəndir. Əsərdəki koloristik dram, kompozisiya plastikası və süjetin sosial dərinliyi onu sənətşünaslıq baxımından nəinki dövrünün, hətta janrın yüksək nümunələrindən birinə çevirir.

Oxşar kompozisiya həllinə biz rəssamın "Azərbaycan toyu" (1957) əsərində rast gəlirik. Bu əsər Vəcihə Səmədovanın ən genişmiqyaslı və çoxfiqurlu süjetli kompozisiyalarından biridir. Bu əsərdə rəssam yalnız toy mərasimini deyil, həm də xalqın məişət ənənələrini, ailə institutunu və qadının cəmiyyətdəki funksional rolunu birgə təsvir edir.



**Vəcihə Səmədova. "Azərbaycan toyu". 1957.**

Kompozisiya dinamik və ritmik quruluşa malikdir – səhnə dərinlik və qatlar üzrə təşkil olunub. Ön planda gəlin fiquru, mərkəzdə isə onu əhatələyən qadınlar, uşaqlar və toy hazırlığı ilə məşğul olan digər iştirakçılar təsvir edilib. Fiqurların yerləşimi həlqəvari quruluş yaradır – bu, ailə və qadın dünyasının qapalı, lakin dinamik strukturunu simvolizə edir. Sağ tərəfdə samovar və

qızdırıcı alətlərlə məşğul olan qadınlar məişət realizmini, solda uşaq əmizdirən ana və xidmətçi isə qadın çoxfunksionallığını bədii dillə təqdim edir.

Bütün süjet daxili həyət məkanında qurulub. Bu, həm real məkan, həm də xalqın ailəvi kollektiv yaddaşının mədəniyyət modeli kimi oxuna bilər. Mərkəzdəki gəlin fiziki olaraq passiv, lakin emosional olaraq əsərin semantik mərkəzidir. Onun ətrafında cərəyan edən hərəkət – yemək daşıyan, bəzək gətirən, qucaqlaşan qadınlar – toy mərasimindəki birgəlik və funksional əmək bölgüsünü göstərir.

Əsərin koloristik quruluşu Azərbaycan milli ornamentikasına və tekstil mədəniyyətinə əsaslanır. Qırmızı, sarı, yaşıl, mavi və tünd tonlar bir-birinə qarşı balanslı şəkildə yerləşdirilmişdir. Gəlinin parlaq sarı paltarı və onun üstündəki al-qırmızı xalçalar əsərin rəng mərkəzini təşkil edir. Bu, ənənəvi gəlin libasının parlaqlığı və təntənəsinin rənglə ifadəsi kimi oxunur.

Arxa plan isə daha yumşaq, pastel tonlarla verilib – bu da ön plandakı fiqurları önə çıxarmağa xidmət edir. Rəssam tektonik sıxlığa girmədən, fırça toxunuşlarını sərbəst və ritmik şəkildə tətbiq etmişdir. Bu isə əsəri həm dekorativ, həm də canlı ifadə daşıyan təsvirə çevirir. Əsərin əsas dəyəri yalnız bir toy səhnəsinin təsvirində deyil, bu məişət hadisəsinin ictimai və qadın kontekstində şərhindədir. Toy burada həm də cəmiyyətin çoxqatlı strukturunun, qadın həmrəyliyinin, ailə münasibətlərinin və xalq adət-ənənələrinin kollektiv simvoludur.

Əsərdə kişilər yoxdur – bu, təsadüfi deyil. Rəssam diqqəti qadın dünyasına, onların əməyinə, yükünə və birliyinə yönəltmişdir. Hər qadın fərqli yaşda, sosial funksiyada və psixoloji vəziyyətdədir: uşaqlı ana, yaşlı nəslin nümayəndəsi, gəlin, xidmətçi, mərasim iştirakçıları. Bu fərqlilik içində daxili harmoniya və qadınlararası enerji axını əsəri emosional gücə çevirir.

“Azərbaycan toyu” (1957) tablosu Vəcihə Səmədovanın xalq həyatı və qadın təfəkkürü ilə bağlı bədii müşahidələrinin yüksək sənətkarlıqla ifadəsidir. Bu əsər həm etnoqrafik baxımdan sənədli, həm də bədii-fəlsəfi baxımdan estetik bütöv bir əsərdir. Kompozisiya, rəng münasibətləri, fiqurların plastikası və sosial obrazları əsəri Azərbaycan süjetli rəssamlığının yüksək zirvələrindən biri səviyyəsinə yüksəldir.

Vəcihə Səmədovanın süjetli kompozisiyalarına xas olan koloristik həssaslıq, quruluş və məkan münasibətlərindəki peşəkarlıq, obrazlarının daxili aləminin bədii təcəssümü, onun özünəməxsus üslub orijinallığını və dərinliyini göstərir.

Vəcihə Səmədovanın süjetli kompozisiyaları içərisində "Xəbər gözləyərkən" (1964) tablosu özünün maraqlı bədii həlli ilə seçilir. Belə ki, bu əsər Vəcihə Səmədovanın emosional və psixoloji yüklü süjetli kompozisiyalarından biridir. Əsərin süjeti konkret olaraq bir hadisəyə – balıqçıların dənizdən qayıtmasını gözləyən qadınların narahat və ümidsiz gözləntisinə əsaslanır. Lakin bu gözlənti anı, rəssam tərəfindən vizual fəlsəfi metafora çevrilmişdir. Kompozisiyada fiqurlar üç qrupa bölünür: Ön planda iki qadın – biri gənc, biri yaşlı (emosional fokus nöqtəsidir); orta planda tənha qayıqlar (keçmişi və itkin ümidləri təmsil edir); arxa planda isə uzaqda toplaşmış insan kütləsi (kütləvi narahatlıq və kollektiv gözlənti məqamıdır). Bütün bu elementlər horizontal və dərinlikli kompozisiya quruluşu yaradır. Qadın fiqurlarının sahil boyunca düzülməsi isə dərin vizual perspektiv və emosional yüklü mənzərə təəssüratı yaradır.

Əsər koloristik baxımdan tutqun və soyuq rəng palitrası ilə işlənmişdir. Boz, tünd qəhvəyi, qumsarı və dəniz mavisi tonları, ümumi duyğusal vəziyyəti – narahatlıq, səssizlik, boşluq və ümidsizlik hissini əks etdirir. Bu rənglər, əsərdə hər hansı bir bayram və ya məişət parıltısından uzaq, dramatik-sakit ab-hava yaradır. Fırça işi burada daha yumşaq və səssiz fakturada aparılıb. Fiqurlar sərt konturlarla yox, səthə yayılmış rəng ləkələri ilə formalaşır. Bu texnika onların ətraf mühitlə iç-içə keçmiş, təbii və real görünməsinə xidmət edir. Qayıqların konturları isə daha sərtdir – sabit və lakin həyatın içindən çıxmış, sakit bir boşluq kimi oxunur.

"Xəbər gözləyərkən" (1964) əsəri yalnız bir ailənin yox, bir toplumun içindəki narahatlıq və qeyri-müəyyənlik vəziyyətini əks etdirir. Buradakı iki qadın – biri yaşlı, biri gənc – iki nəsli, keçmiş və gələcəyin emosional yüklərini, qadının ailədəki və cəmiyyətdəki gözləmə funksiyasını təmsil edir. Qayıqlar burda yalnız nəqliyyat vasitəsi yox, ümidlərin boşluqda dayanmış metaforasıdır. Onlar hərəkətsizdir, tərk edilmiş kimidirlər – bu isə gözləyənlərin təhlükə,

yoxluq və itki hissləri ilə baş-başa qaldığını göstərir. Arxa plandakı fiqurlar (fərqləndirilməyən, bir kütlə halında verilmiş insanlar) isə hər kəsin eyni aqibətlə üz-üzə olduğunu simvolizə edir. Bu, fərdi narahatlığın ictimai narahatlığa çevrildiyi bir məqamdır.



**Vəcihə Səmədova. "Xəbər gözləyərkən". 1964.**

"Xəbər gözləyərkən" (1964) əsəri Vəcihə Səmədovanın poetik realizm və sosial psixologiyanı birləşdirən yüksək bədii ifadə imkanlarını nümayiş etdirir. Bu əsər burada baş verən dramatik gözləmə anı ilə yanaşı, həm də Azərbaycan qadınının həyatdakı səssiz gücünü, gözləmə mədəniyyətini və emosional davamlılığını simvolizə etdirən bir rəngkarlıq nümunəsidir.

Kompozisiya quruluşu, rəng harmoniyası, bədii ritm və simvolik dərinlik baxımından bu tablo Vəcihə Səmədovanın ən lirik və fəlsəfi süjetli kompozisiyalarından hesab edilir. *"Doğma və yaxınlarının sözlərinə görə bu, artıq ölümcül xəstə olan rəssamın son böyük əsəri idi. Son diaqnozu gözləmə anının bütün dramatikliyi ilə verildiyi bu tablo özünəməxsus avtobioqrafik metafora kimi qavranıla bilər" (Əfəndiyev T. 2013. s. 54-55)*

**Nəticə:** Nəticə etibarilə qeyd edək ki, Vəcihə Səmədovanın süjetli kompozisiyaları yalnız dövrün bədii salnaməsi deyil, həm də qadın rəssamın cəmiyyətə, insanlara, milli dəyərlərə münasibətinin rəng, forma və süjet vasitəsilə ifadəsidir. Onun yaradıcılığında qadın fiquru, ailə münasibətləri,

məişət səhnələri və tarixi şəxsiyyətlər sənətkarlıqla yanaşı, dərin ideya yüklü simvollarla təqdim olunur. Rəssamın rəng duyumu, plastika quruculuğu və bədii təfəkkürü ona realist təsvirin çərçivələrini genişləndirərək, sosial realizmlə bədii lirikanı sintez etmək imkanı vermişdir. Məqalədə təhlil edilən süjetli kompozisiyalar, həm rəngkarlıq texnikası, həm də ideya-məzmun baxımından sənətşünaslıq dəyəri daşımaqla yanaşı, Azərbaycan rəngkarlığına böyük töhfə hesab edilir. Vəcihə Səmədova Azərbaycan qadınının ictimai rolunu və daxili gücünü süjet vasitəsilə təqdim edərək, onu klassik Azərbaycan rəssamlıq məktəbinin unudulmaz simalarından birinə çevirmişdir.

## Ədəbiyyat siyahısı

1. Məlikova Ş. (2015). Vəcihə Səmədova. Rəngkarlıq və qrafika. Bakı, Xalq Bank.
2. Əfəndiyev T. (2013). Vəcihə Səmədova. Rəngkarlıq və qrafika. Bakı, Sərvət toplusu.
3. Əliyeva İ. Qısa ömürlü sənətkarın uzunömürlü əsərləri. Vəcihə Səmədova – 90. Azərbaycan qəzeti, 2014, 27 noyabr. Səh. 7
4. Azərbaycan rəngkarlığının kraliçası (2009). Sənədli film. Rəssam Vəcihə Səmədova. URL: https://www.youtube.com/watch?v=rG-QSAFpbwI
5. Qısa ömürlü sənətkarın uzunömürlü əsərləri. Vəcihə Səmədova – 90. URL: https://anl.az/down/meqale/azerbaycan/2014/noyabr/405284.htm

**Гейдарова Эсмира Фахраддин гызы**

## Сюжетные композиции и их художественные характеристики в творчестве Ваджии Самедовой

### Резюме

В статье исследуются художественные особенности сюжетных композиций в творчестве азербайджанской художницы Ваджии Самедовой. Во второй половине XX века роль женщин-художниц в азербайджанском изобразительном искусстве значительно возросла, и в этот период Ваджия Самедова привнесла в художественный образ не только реалистическую манеру изображения, но и поэтическое восприятие, присущее женскому

миру. Особое внимание в статье уделяется анализу таких произведений, как «Узеир Гаджибейли среди азербайджанских композиторов» (1951), «Обряд помолвки» (1955), «Азербайджанская свадьба» (1957), «В саду» (1957), «Ленкоранские девушки» (1961), «Свадебное торжество в Ленкоране» (1964), «В ожидании вестей» (1964) и «Пожилые разведчики» (1965).

В этих произведениях женские образы, социальные отношения, народный быт и духовные ценности представлены посредством индивидуального художественного языка автора. Ваджия Самедова достигает в своих композициях не только эстетической гармонии, но и психологической глубины, внутренней динамики и цветовой слаженности. Темы труда, семьи, ожидания, культуры и исторической памяти формируют смысловой каркас её сюжетов. Каждое из произведений художницы в определённой мере несёт поэтическое содержание и отражает место азербайджанской женщины в жизни и искусстве. В статье проводится искусствоведческий анализ этих композиций, раскрывается их художественно-эстетическая значимость.

**Ключевые слова:** Ваджия Самедова, сюжетная композиция, азербайджанская живопись, художник, художественные особенности.

**Haydarova Esmira Fakhraddin**

## Narrative Compositions and Their Artistic Features in the Work of Vajiha Samadova

### Summary

This article examines the artistic features of narrative compositions in the work of Azerbaijani painter Vajiha Samadova. In the second half of the 20th century, the role of female artists in Azerbaijani visual art increased significantly, and during this period, Vajiha Samadova brought to the artistic image not only a realist depiction technique but also a poetic sensibility rooted in the feminine world. The article focuses on analyzing some of her prominent compositions such as “Uzeyir Hajibeyli Among Azerbaijani Composers” (1951), “Engagement Ceremony” (1955), “Azerbaijani Wedding” (1957), “In the

Garden" (1957), "Girls of Lankaran" (1961), "Wedding Celebration in Lankaran" (1964), "Waiting for News" (1964), and "Elderly Scouts" (1965).

These works present female figures, social relations, folk life, and spiritual values through the artist's distinctive visual language. In her compositions, Samadova achieves not only artistic harmony but also psychological depth, internal dynamism, and rich color balance. Themes such as labor, family, expectation, culture, and historical memory serve as the conceptual framework of her narrative art. Each painting carries a poetic dimension and reflects the role of Azerbaijani women in both life and art. The article provides an art-historical analysis of these compositions, revealing their artistic and aesthetic value.

**Key words:** Vajiha Samadova, narrative composition, Azerbaijani painting, artist, artistic features

***Məqalələrin redaksiyaya daxilolma tarixi: 01.05.2025***
***Məqalənin çapa qəbul olunma tarixi: 12.05.2025***
***Ekspert rəyi: Aslan Xəlilov***